*H.Əliyevin 100 illik yubileyi ilə bağlı*
*DİM-də təşkil edilmiş tədbir (05.05.2023)*

**Hörmətli Məleykə xanım, tədbir iştirakçıları!**

Belə bir tədbirdə çıxış etmək mənim üçün çox əlamətdar və şərəflidir.

Ulu Öndərin Azərbaycan xalqının həyatında, dövlətçiliyimizin qurulmasında, möhkəmlənməsində rolu, fəaliyyəti o qədər çoxşaxəli və geniş olub ki, bu haqda nə qədər bəhs etsək də onu tam əhatə etmək mümkün deyil.

Heydər Əliyev o dövlət xadimlərindəndir ki, iki ictimai-siyasi quruluşda Azərbaycana rəhbərlik etmişdir. Hər iki sistemdə o, milli dövlətçiliyi inkişaf etdirmiş, dövlətin siyasi, hüquqi, iqtisadi və mədəni özülünün möhkəmləndirilməsində misilsiz xidmət göstərmişdir.

Heydər Əliyevin rəhbərliyinin birinci dövründə milli dirçəlişə nail olmaq üçün Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırmış, onu dövlət, sovet və partiya orqanlarında işlək dilə çevirmiş və 1978-ci il Konstitusiyasında Azərbaycan dili rəsmən dövlət dili elan edilmişdir.

Eyni zamanda o dövlət, sovet və partiya strukturlarında milli kadrların yerləşdirilməsinə də xüsusi önəm verirdi. Onun dövlət idarəetmə sisteminin milli kadrlarla təmin olunması yönündə atdığı addımlar nəticəsində dövlət strukturlarındakı vəziyyət kökündən dəyişdi.

O tək milli kadrları önə çəkmirdi, eyni zamanda Azərbaycanın gələcəyini də düşünərək milli kadr potensialını yaradırdı. 1969-cu ilə qədər SSRİ-nin aqrar-xammal bazası olan Azərbaycanda onun hakimiyyətə gəlişindən sonra sənaye, maşınqayırma və kimya texnologiyaları sürətlə inkişaf etməyə başladı. Bu isə öz növbəsində ixtisaslaşmış savadlı milli mühəndis kadrlara tələbat yaratdı. Ölkəyə lazım olan mütəxəssisləri yetişdirmək, Respublikanın elmi-texniki və mədəni potensialını yüksəltmək məqsədilə Azərbaycanın ali məktəblərində yeni-yeni ixtisaslar üzrə fakültələr açıldı, ildə orta hesabla **800-ə yaxın gənc "inoqorodnik"** Sovet İttifaqının qabaqcıl ali məktəblərinə (Moskva, Leninqrad, Kiyev, Xarkov və s.) göndərildi. Müqayisə üçün qeyd edək ki, 1969-cu ildə bütün SSRİ-nin ali məktəbləri üzrə azərbaycanlı gənclərə cəmisi **50 yer** ayrılmışdı. Heydər Əliyevin fəaliyyəti sayəsində 1970-80-ci illərdə Azərbaycandan kənarda vətənimiz üçün **15 mindən çox** yüksək ixtisaslı mütəxəssis yetişdirilmişdi. Dövlət idarəetmə sisteminə məhz Heydər Əliyevin səyi və təşəbbüsü ilə Azərbaycandan kənarda təhsil alan yüksək ixtisaslı, milli maraqların daşıyıcısı olan "gənc mütəxəssislər" gətirildi.

Heydər Əliyevin bu siyasəti üç cəhətdən mühüm əhəmiyyət kəsb edirdi:

**Əvvəla,** Azərbaycanın elmi və kadr potensialı geniş dünyagörüşlü və peşəkar gənclər hesabına zənginləşdi.

**İkincisi,** tariximizin, adət-ənənəmizin, milli-mənəvi və əxlaqi dəyərlərimizin təbliği üçün imkanlar genişləndi, yəni Azərbaycan gənclərinin oxuduğu respublikalarda ilk Azərbaycan diasporlarının əsası qoyuldu.

**Üçüncüsü,** ölkəmiz müstəqilliyə qovuşandan sonra yeni dövlət quruculuğu prosesində Heydər Əliyev bu kadrlara arxalanaraq müstəqil dövlətçiliyin qorunub saxlanması və möhkəmləndirilməsi vəzifələrini uğurla həll etdi.

Yeri gəlmişkən qeyd etmək istərdim ki, Dövlət İmtahan Mərkəzinin rəhbərliyində və əməkdaşlarının sırasında da, **mən də daxil olmaqla** Heydər Əliyevin səyi və təşəbüsü ilə həmin dövrdə keçmiş SSRİ-nin müxtəlif ali məktəblərində təhsil alanlar var.

**Onun ölkə rəhbərliyinə 1993-cü ildə ikinci gəlişi** də ictimai münasibətlərin gərginləşdiyi, dözülməz sosial-iqtisadi durum, hakimiyyətsizliklə müşahidə olunan bir zamana təsadüf etdi.

*"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır."*, - deyən ulu öndərimiz gərgin fəaliyyəti sayəsində dövlətimizi yox olma təhlükəsindən qurtardı, ictimai-siyasi sabitliyi bərqərar etdi. Ölkəmizdə demokratik idarəçiliyin yaradılması, dövlət orqanlarının fəaliyyətində çevikliyin və şəffaflığın gücləndirilməsi məqsədilə köklü islahatlara start verildi. 1995-ci ildə Azərbaycanın yeni Konstitusiyası qəbul edildi. 2000-ci ildə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Bu qanunun qəbul edilməsi ilə dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyuldu.

Azərbaycana ilk rəhbərlik etdiyi dövrdə olduğu kimi, ölkəmizin müstəqilliyi dövründə də Heydər Əliyev milli kadrların yetişdirilməsinə yenə xüsusi önəm verdi, ali məktəblərə tələbə qəbulunun şəffaflıq şəraitində keçirilməsi üçün TQDK-nın fəaliyyətinə güclü dəstək verdi, gənc nəslin və qadınların dövlət orqanlarında daha çox təmsil olunması istiqamətində işlər gördü.

31 avqust 1998-ci ildə 1970-1987-ci illərdə Azərbaycandan kənarda ali təhsil almış şəxslərlə görüşündə ümummilli lider uzaqgörənliklə vurğulamışdır ki, "...Dünyanın inkişaf etmiş ölkələrinin, yüksək səviyyəli universitetlərin, institutların imkanlarından Azərbaycanın gələcəyi, dəyərli kadrlar hazırlanması üçün bundan sonra da səmərəli istifadə etməliyik... Şübhəsiz ki, bu sahədə dövlət proqramı olmalıdır..."

Belə bir proqram - «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı» qəbul olundu. Bu proqram çərçivəsində xeyli gənclərimiz dünyanın qabaqcıl ali məktəblərinin məzunları oldular. Onların bir hissəsi müsabiqədən kənar dövlət qulluğunda inzibati vəzifələrə təyinat aldılar. Azərbaycandan kənarda yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində Heydər Əliyev tərəfindən həyata keçirilmiş siyasət bu gün gənclərimizin dünyanın ən qabaqcıl ali təhsil və elm müəssisələrində təhsil alması ilə davam etdirilir. 2022-2026-cı illər üçün də yeni Dövlət Proqramı qəbul olunub.

Ulu Öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev 2003-cü ildə Prezident seçildiyi gündən dövlət idarəçiliyi sisteminin daha da səmərəli fəaliyyət göstərməsini və ali məktəblərə tələbə qəbulunda şəffaflığın təmin edilməsini prioritet fəaliyyət sahələri kimi daim diqqət mərkəzində saxlayır. Belə ki, vətəndaşların dövlət idarəetmə strukturlarında işə qəbul olunmasında bəzi məmurların yaratdığı süni əngəllərin aradan qaldırılması, dövlət qulluğuna qəbulun mərkəzləşdirilmiş qaydada, müsabiqə və şəffaflıq əsasında aparılması, dövlət qulluğu qanunvericiliyinin tətbiqinə nəzarət edilməsi məqsədilə 2005-ci ildə Prezident

yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, 2016-cı ildə isə TQDK və DQMK-nın əsasında Dövlət İmtahan Mərkəzi yaradılmışdır.

Fəaliyyət göstərdiyi 18 ilə yaxın müddətdə Komissiyanın, sonra isə DİM-in fəaliyyəti nəticəsində 100 mindən artıq vətəndaş dövlət qulluğuna qəbul üçün test imtahanı vermiş və onlardan 30 minə yaxını uğur qazanmışdır. Bu dövr ərzində 45 mindən artıq namizəd müsahibələrdə iştirak etmiş, 17 mindən çox müsahibədən keçən namizəddən 13260 nəfər müxtəlif dövlət qulluğu vəzifələrinə təyinat almışdır. Vurğulamaq istərdim ki, yeni təyinat alanların 80%-ə qədəri gənclər olur. Nəzərə alsaq ki, DQ Reyestrində inzibati vəzifələrdə çalışan dövlət qulluqçularının sayı 18 mindir, onda 70%-dən çox dövlət qulluqçusu son 15 ildə təyinat alan gənc və artıq orta yaşlı nəsildir.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır.

Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Ulu öndərin əziz xatirəsi bizim qəlbimizdə, bütün Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

**Diqqətinizə görə təşəkkür edirəm.**

---

**Qısa bir xatirə ilə bölüşmək istərdim.**

Mən isə çalışacam onun mənim həyatımda, indiyə qədər çalışdığım sahələrdə - müasir təhsil və dövlət qulluğu sisteminin, milli kadr potensialının yaradılması istiqamətindəki fəaliyyətindən bəhs edəcəm.

Özüm haqqında qısa məlumat verim. Mən 1979-cu ildə Yevlax rayonunun Kövər kənd orta məktəbini bitirmişəm. qurtardıqdan sonra Azəbaycandan Sovetlər birliyinin qabaqcıl ali məktəblərinə təhsil almaq üçün göndərilən gənclərdən, “inoqorodniklərdən” biri oldum. Həmin ilin avqustunda o vaxtkı Lenin sarayında digər şəhərlərə təhsil almaq üçün göndərilən 1000-ə yaxın gənc və onların valideynləri ilə H.Əliyev görüş keçirdi. Bu gənclərə Azərbaycanı layiqincə təmsil etməyi, yaxşı oxuyub, savadlı bir mütəxəssis kimi yetişməyi və gələcəkdə millətimiz üçün yararlı bir kadr olmağı tövsiyyə etdi və çıxışının sonunda “Biz hələ görüşəcəyik” dedi. Bu görüş düz 21 ildən sonra baş tutdu. Mən artıq Xarkov Politexnik İnstitutunu bitirmiş, namizədlik dissertasiyası müdafiə etmiş, Memarlıq Universitetinin dosenti olmuş və TQDK-da şöbə müdiri vəzifəsində çalışırdım.2000-ci ildə seçkilərin

nəticələrinin avtomatlaşdırılmış emalı üçün Mərkəzi Seçki Komissiyasının “ Seçkilər ” informasiya mərkəzinin yaradılmasında yeni kompüter texnologiyalarının istifadəsində mühüm təcrübəsi və peşəkar mütəxəssisləri olan TQDK çox yaxından iştirak edirdi. Hətta bu mərkəzə rəhbər də TQDK-nın aparıcı mütəxəssislərindən və “inoqorodniklərdən“ biri olan İqbal Babayev təyin olunmuşdu. Bu proseslərdə TQDK-nın yaxından iştirak etməsi, ona belə məsuliyyətli bir işin həvalə olunması ölkə rəhbərliyi şəxsən ulu öndərimiz tərəfindən TQDK-nın rəhbərliyinə, kollektivinə göstərilən ən böyük etimad idi. TQDK yüksək peşəkarlıq göstərərək bu işin öhdəsindən layiqincə gəldi və bu mərkəz indi də öz işini uğurla davam etdirir. Bu informasiya mərkəzinin açılışında ulu öndərimizin özü şəxsən iştirak edirdi və bütün işçi qruplarla görüşürdü. Bizimlə görüşdə mənim “inoqorodnik” olduğumu biləndə çox məmnun oldu və o illər haqqında xatirələrindən danışdı. Mən də Lenin sarayındakı görüşümüz və o vaxtkı təəssüratlarım haqqında, orada hər bir gəncə xüsusi geyim forması, portfel, kitablar, pulsuz təyyarə bileti verilməsi haqqında danışdım. O, gülümsəyərək məni dinləyirdi və axırda gülə-gülə məndən soruşdu ki, o vaxtkı görüşdə gənclərə daha nə verilmişdi? Və özü də cavab verdi ki, bəs niyə o 45 manatı yaddan çıxardırsan? Həqiqətən də hər bir gəncə əlavə olaraq 45 manat da cib xərcliyi verilirdi. 2002-ci ildə BMT-nin inkişaf proqramı və Azərbaycan hökuməti tərəfindən birgə həyata keçirilən çox mühüm bir layihədə “Azərbaycanda İKT üzrə Milli Strategiya” nın hazırlanması layihəsində ulu öndərimizin seçimi yenə də TQDK-nın üzərində dayandı və TQDK-nın sədri Məleykə xanım bu layihənin milli koordinatoru təyin olundu. Bu TQDK-ya növbəti dəfə göstərilən çox böyük etimad idi. Bu etimadı TQDK yenə də doğrultdu və bu layihənin yerinə yetirilməsi nəticəsində Azərbaycanın İKT sahəsində Milli Strategiyası işlənib hazırlandı. Bu Strategiyanın əsasında sonrakı illərdə “Elektron Azərbaycan” dövlət proqramı tərtib olundu ki, burada artıq İKT-nin tətbiqi ilə bağlı konkret tədbirlər nəzərdə tutulurdu. TQDK-nın İKT-nın kütləvi proseslərdə istifadəsində yeni bir mərhələ bu ilki qəbul imtahanlarının sənəd qəbulu prosesində internet vasitəsi ilə elektron ərizə qəbulunun uğurla həyata keçirilməsidir. Bu cəmiyyətdə çox böyük əks-səda doğuran cəmiyyətin İKT sahəsində maariflənməsində mühüm rol oynayan bir hadisədir.

Bildiyimiz kimi ulu öndərimizin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev cənabları da İKT sahəsini neftdən sonra ən prioritet sahələrdən biri elan etmişdir. İKT-nin kütləvi proseslərə tətbiqində ən aparıcı təşkilat olan TQDK-nın rəhbərliyinə və kollektivinə ölkəmizin, xalqımızın inkişafı yolunda yeni-yeni İKT zirvələrinin fəth edilməsi sevincini tez-tez yaşamağı və can sağlığı arzu edirəm.